bir xəyal qur...

Kitabın sahibi

Oxu tarixi



Ürək ver

BASKERVİLLƏRİN İTİ

ARTUR KONAN DOYL

İngilis dilindən tərcümə:

Anar Mahmudov

Simurq

Baş redaktor:	Amin
Redaktor:	Fərid HÜSEYN
Korrektor:	Turac ELDARQIZI
Tərtibatçı:	İsmayıl SÜLEYMANLI
Art-direktor:	Ramin HƏSƏNƏLİZADƏ
Cildin dizayneri:	Aygül ƏLİYEVA

Arthur Conan Doyle
THE HOUND OF THE BASKERVILLES

Artur Konan Doyl
BASKERVİLLƏRİN İTİ

Bakı, “Simurq” Nəşriyyatı – 2026, 304 səh. / III nəşr

© Arthur Conan Doyle / 1902
© Parlaq İmzalar MMC / 2024
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Simurq Nəşriyyatı | 17
Şerlok Holmsun macəraları | 1

SİMURQ – Parlaq İmzalar MMC-yə məxsus markadır.

www.parlaqimzalar.az
simurq@parlaqimzalar.az
facebook.com/simurqkitab
0559697259 / 0559897259

Mətbəə: “AVE PRİNT” MMC
SENTYABR / 2026

Artur Konan Doyl 1859-cu il mayın 22-də Edinburq şəhərində anadan olub. Yazıçı Edinburq Universitetində tibb üzrə təhsil alıb. Amma elə tələbəlik illərindən ədəbiyyata və yazıçılığa həvəsi olub. Bret Hart və Edqar Alan Ponun kitablarını çox oxuyub. Sonuncunun "Qızıl böcək" hekayəsi gənc tələbənin yaddaşında silinməz iz qoyub. Elə bu təsirlənmələr Konan Doylu yazmağa təşviq edib.

Məşhur xəfiyyə Şerlok Holmsdan bəhs edən ilk roman – "Al-qırmızı etüd" 1886-cı ildə nəşr olunub. Bunun ardınca 1890-cı ildə "Dördlərin işarəsi", 1902-ci ildə "Baskervillərin iti", 1915-ci ildə isə "Qorxu vadisi" çapdan çıxıb. "Şerlok Holmsun macəraları" adlı hekayələr silsiləsi isə "Strand Magazine" jurnalında dərc edilib.

Detektiv ədəbiyyatın ustalarından sayılan Artur Konan Doyl 1930-cu il iyulun 7-də Sasseks şəhərindəki evində ürəktutmasından dünyasını dəyişib.

Anar Mahmudov 1973-cü il martın 21-də anadan olub. M. Ə. Rəsulzadə adına ADU-nun Şərqşünaslıq fakültəsini bitirib. Kitablarla yanaşı, bir neçə bədii və sənədli filmi Azərbaycan dilinə çevirib.

Tərcümə etdiyi əsərlər arasında bu kitablar da var: "Təhrik", "Qürur və qərəz" (Ceyn Ostin), "Yeni il nəğməsi" (Çarlz Dikkens), "Ağdiş" (Cek London), "Keşiş evində qətl", "On üç müəmma" (Aqata Kristi), "Boyalı quş" (Yerji Koşinski), "Ququ yuvası üzərindən uçuş" (Ken Kizi), "İngilis pasiyent" (Maykl Ondatce), "Parıltı" (Stiven Kinq).

Mündəricat

I FƏSİL
Mister Şerlok Holms_____9

II FƏSİL
Baskervillərin lənəti_____22

III FƏSİL
Müəmma_____41

IV FƏSİL
Ser Henri Baskervil_____57

V FƏSİL
Əldən çıxmış üç ipucu_____78

VI FƏSİL
Baskervil-Hol_____96

VII FƏSİL
Merripit-Hausda yaşayan Steypltonlar_____114

VIII FƏSİL
Doktor Vatsonun birinci hesabatı_____138

IX FƏSİL
Doktor Vatsonun ikinci hesabatı_____151

X FƏSİL
Doktor Vatsonun gündəliyindən sitat_____180

XI FƏSİL
Daş sütunun başındakı adam_____198

XII FƏSİL
Süpürgəlikdə ölüm_____221

XIII FƏSİL
Torların qurulması_____245

XIV FƏSİL
Baskervillərin iti_____263

XV FƏSİL
Geriyə baxış_____282



I FƏSİL

Mister Şerlok Holms

Mister Şerlok Holms gec qalxmağa öyrəncəli idi, hərçənd tez-tez səhərə qədər oyaq da qalırdı. İndi yenə adəti üzrə gec qalxıb səhər yeməyini yeyirdi. Mən buxarının qarşısındakı xalçanın üstündə dayanmışdım və ötən gecə bir ziyarətçimizin yadından çıxararaq qoyub getdiyi əsanı əlimdə tutmuşdum. Günbəzvari dəstəli yoğun, möhkəm əl ağacı "Pinanq vəkili" tipli əsalardan idi.[1] Dəstəsinin altına təqribən 2,5 santimetr enində gümüş halqa vurulmuşdu və üstünə belə bir mətn həkk edilmişdi: "KCK[2] üzvü Ceyms Mor-

1. "Pinanq vəkili" əsası Şərqi Asiya palmasının oduncağından hazırlanır. – Tərc.

2. KCK (ingiliscə tam adı: *Royal College of Surgeons of England*) – Kral Cərrahiyyə Kollegiyası; İngiltərə və Uelsdə cərrah və stomatoloqları birləşdirən qurum – Tərc.

timerə ÇKX-dəki dostlarından". Və tarix qeyd olunmuşdu: "1884". Bu, köhnə ailə həkimlərinin gəzdirdiyi sanballı, möhkəm, tez sınmayan əsalardan idi.

– Hə, Vatson, ağlınız nə kəsir?

Mən Holmsdan arxada dayanmışdım, elə bilirdim, əsanı nəzərdən keçirdiyimi görmür.

– Nə bildiniz ki, əsaya baxıram? Peysərinizdə gözünüz var, nədir?

– Peysərimdə gözüm yoxdur, amma qarşımda gümüş qəhvədan var, özü də güzgü kimi bərq vurur, – o dedi. – Siz deyin görüm, qonağımızın əl ağacı haqqında nə deyə bilərsiniz? Onunla görüşmək fürsətini əldən vermişik, üstəlik, gəlişinin səbəbini bilmirik. Ona görə də bu təsadüfi suvenir vacib əşya sayılmalıdır. Bu əl ağacına əsasən onun sahibi haqqında nə deyə bilərsiniz? Mən sizin fikrinizi eşitmək istəyərdim.

– Zənnimcə, – mən həmkarımın üsuluna mümkün qədər uyğun şəkildə sözə başladım, – bu doktor Mortimer səriştəli, yaşlı bir tibb işçisidir. Həm də tanışları ona belə bir əşya bağışlayıblarsa, deməli, hörmətli, nüfuzlu adamdır.

– Aha! – Holms dedi. – Əla!

– Güman eləyirəm, bu adam kənd həkimidir, özü də çox vaxt xəstələrin evinə piyada gedir.

– Niyə elə fikirləşirsiniz?

– Çünki bu əsa vaxtilə çox qəşəng mal olsa da, üstü çapıq-çapıqdır. Şəhər həkiminin belə bir ağacla gəzməyini təsəvvür eləmək çətindir. Əsanın ucundakı qalın dəmir parçası tamam yeyilib. Görünür, çox piyada gəzirmiş.

– Çox məntiqli mühakimədir, – Holms dedi.

– Bu ÇKX deyilən şey hansısa klubun adına oxşayır. Bəlkə də, yerli ovçuluq klubudur. Bəlkə də, Mortimer onun üzvlərinə cərrah kimi kömək eləyib, onlar da əvəzində belə bir kiçik hədiyyə veriblər.

– Getdikcə peşəkarlaşırsınız, Vatson, ciddi sözümdür, – Holms stulunu geri itələyib siqaret yandıraraq dedi. – Bunu da deməliyəm: siz mənim xırda uğurlarımın tərifini göylərə qaldıranda öz qabiliyyətiniz haqqında çox bədgüman olmusunuz, onu yetərincə qiymətləndirməmisiniz. Ola bilər, siz özünüz bir nur mənbəyi deyilsiniz, amma nuru əks elətdirirsiniz. Bəzi adamlar özləri xüsusi istedad sahibi olmasalar da, başqalarının xüsusi istedadını oyatmaqda mahirdirlər. Bu mənada sizə minnətdaram, əziz dostum.

Holms indiyə kimi mənim haqqımda belə yüksək fikirlər dilə gətirməmişdi və düzü, onun sözləri canıma yağ kimi yayıldı. Çünki ona heyranlı-

ğıma, onun iş metodunu təbliğ etmək cəhdlərimə etinasızlığı indiyə qədər mənə çatmırdı və xətrimə dəyirdi. İndi mən onun üslubunu elə yüksək səviyyədə mənimsəmişdim ki, Holms özü məni tərifləmişdi. Təbii, bu da qürurumu oxşayırdı. Holms əsanı məndən aldı, bir neçə dəqiqə nəzərdən keçirdi. Nəsə diqqətini cəlb etdi, siqaretini külqabıya qoydu, əsanı pəncərənin qarşısına gətirdi və bu dəfə zərrəbinlə nəzərdən keçirməyə başladı.

– Bəsit bir şeydir, amma maraqlıdır, – o, divanda küncünə qayıdaraq dedi. – Əlbəttə, bu əsanın üstündə bir neçə vacib əlamət var. Bunlar bəzi nəticələrə gəlməyə əsas verir.

– Olmaya, nəyəsə diqqət yetirməmişəm? – mən şəstlə soruşdum. – Ümid eləyirəm, ciddi bir şeyi nəzərdən qaçırtmamışam.

– Təəssüf ki, qənaətlərinizin çoxu yanlışdır, əziz Vatson. Sizin səhvləriniz məni həqiqətə yönəldir. İstedadı oyatmaq elə budur, mən bayaq bunu nəzərdə tuturdum. Amma heç də tam yanılmamısınız. Bu adam, həqiqətən də, kənd həkimidir. Özü də çox vaxt piyada gəzir.

– Demək, təxminim doğrudur.

– Bu məsələdə hə.

– Məgər başqa mətləb də var?

– Var, əziz Vatson. Bir bu təxminlə iş bitmir. Məsələn, mən güman eləyərdim ki, bu əşya hansısa ovçuluq klubunun yox, xəstəxana işçilərinin hədiyyəsidir. ÇKX, güman ki, Çerinq-Kros Xəstəxanası deməkdir.[1]

– Ola bilər, haqlısınız.

– Bu ehtimal daha ağlabatandır. Biz bu mülahizəni əsas tutaraq araşdırmaya başlasaq, naməlum ziyarətçinin kimliyini müəyyən eləmək üçün əlimizdə bir dəlilimiz olar.

– Yaxşı, tutaq ki, ÇKX elə Çerinq-Kros Xəstəxanası deməkdir. Bundan daha hansı nəticələr çıxara bilərik?

– Heç bir ehtimalınız yoxdur? Siz ki mənim metodumu bilirsiniz. Tətbiq eləyin!

– Kişi kəndə getməzdən əvvəl bir müddət şəhərdə işləyib – məncə, ən ağlabatan izah bu ola bilər.

– Məncə, ehtimalları bir az da davam elətdirmək olar. Siz məsələyə bu prizmadan yanaşın: Ona bu cür hədiyyəni nəyə görə verə bilərdilər? Dostları nə vaxt yığışıb ona xoş məramlarını, ehtiramlarını bu şəkildə izhar eləyə bilərdilər? Güman ki, doktor Mortimer xəstəxananı tərk eləyib

1. ÇKX abreviaturasının ingiliscəsi *CCH*-dir. Vatson sonuncu hərfi *"hunt"* (ov, ovçu dəstəsi) sözünün baş hərfi zənn edir, Holms isə *"hospital"* (xəstəxana) kəlməsinin ilk hərfi kimi izah edir. – Tərc.

müstəqil işləmək qərarına gələndə. Ona hədiyyə verilib, biz bunu dəqiq bilirik. Və güman eləyirik ki, bu adam iş yerini dəyişib, xəstəxanadan çıxıb, kənd yerində işləməyə gedib. Tutaq ki, doktor Mortimerə hədiyyəni elə xəstəxanadan çıxması münasibətilə veriblər. Bu fərziyyə çox ağ olmaz ki?

– Yox. Kifayət qədər ağlabatan ehtimaldır.

– Onda həm də güman eləmək olar ki, doktor Mortimer xəstəxananın ştatlı işçisi olmayıb. Çünki Londonda ştatlı həkim kimi özünə yer eləmiş adamın hər şeyi atıb kənd yerində işləməyə getməyi ağlabatan deyil. Bəs orda nə işləyirmiş? Xəstəxanada işləyirmişsə, amma ştatlı işçi deyilmişsə, ya rezident cərrah imiş, ya da rezident terapevt. Bu isə təcrübəçidən az-maz üstün vəzifədir. Və bu adam xəstəxananı beş il əvvəl tərk eləyib – əsanın üstündəki tarix belə düşünməyə əsas verir. Beləliklə, mister Mortimer heç də sizin dediyiniz kimi, ağır taxtalı, yaşlı ailə həkimi deyil, əziz Vatson. Güman ki, xeyli cavandır, heç 30 yaşı olmaz. Mehriban, iddiasız, dalğın adamdır. Teryerdən böyük, amma mastifdən kiçik sevimli iti var.

Mən Şerlok Holmsun dediklərinə şübhə ilə güldüm, o isə divana söykənib tavana kiçik, yayğın tüstü halqaları buraxmağa başladı.

– Bu sonuncu təxminlərinizi təsdiqləyə bilmərəm, amma kişinin yaşı, bir də peşə karyerası ilə bağlı dediklərinizi yoxlamaq lazımdır.

Tibbi kitabları yığdığım kiçik rəfdən Tibbi Soraq kitabçasını götürüb açdım və axtarış aparmağa başladım. Mortimer soyadlı bir neçə cərrah adına rast gəldim, onlardan yalnız biri bizim ziyarətçimiz ola bilərdi. Onunla bağlı məlumatı ucadan oxumağa başladım:

"Mortimer, Ceyms, 1882-ci ildən KCK üzvü. Devonşir qraflığı, Dartmur dairəsi, Qrimpen qəsəbəsi. 1882-ci ildən 1884-cü ilədək Çerinq-Kros Xəstəxanasında rezident cərrah işləyib. "Xəstəlik irsidirmi?" adlı məqaləsinə görə Müqayisəli Patologiya üzrə Cekson mükafatı qazanıb. İsveç Patologiya cəmiyyətinin müxbir üzvüdür. Əsərləri: "Atavizm[1] *anomaliyaları" ("Lanset" jurnalı, 1882-ci il), "Biz təkamül edirikmi?" ("Psixologiya" jurnalı, mart, 1883-cü il). Qrimpen, Torsli və Hay-Barou qəsəbələrinin həkimidir".*

– Ovçular haqqında heç nə yazmayıblar, Vatson, – Holms bic-bic gülümsəyərək dedi, – amma kənd həkimi olması ilə bağlı təxmininiz doğru

1. Atavizm – nəsildə qədim əcdadlara bənzərlik halları – Tərc.

çıxdı. Mən öz gümanlarımı da əsaslı sayıram. Demişdim ki, mehriban, iddiasız, dalğın adamdır. Mənim təcrübəm göstərir ki, kollektiv hədiyyəni yalnız mehriban adamlara verirlər. İddialı adam heç vaxt Londonda karyera imkanlarını qoyub kənd yerinə getməz. Və ev sahibini bir saat gözləyəndən sonra çıxıb gedəndə vizit kartı əvəzinə əl ağacını qoyub gedən adama dalğın, diqqətsiz deməyib, bəs nə deyəsən?

– Bəs nə bildiniz ki, iti var?

– Var, özü də sahibi ona əsasını gətirməyi, onun ardınca daşımağı öyrədib. Ağac yoğundur, ağırdır, ona görə də it onu ortasından dişi ilə bərk tuturmuş. Dişlərinin izləri də aydın görünür. Diş izlərinin aralarına fikir versəniz, görərsiniz ki, bu, orta ölçülü itin diş izləridir. Teryerin dişləri bundan sıx olur. Mastifin dişləri isə bundan xeyli aralıdır... Pahoo, bu, qıvrım tüklü spanielin[1] dişlərinin izidir.

Holms danışdıqca ayağa qalxıb otaqda var-gəl etməyə başlamış, sonda gəlib pəncərənin qarşısında dayanmışdı. Sonuncu cümləsini o qədər əminliklə dedi ki, istər-istəməz başımı qaldırıb təəccüblə ona baxdım:

– Əzizim, axı siz bunu hardan bilirsiniz?

1. Spaniel – it cinsi – Tərc.